

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 199 (24.336)

*27 oktyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib




Oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Qaradağ Günəş Elektrik Stansiyasında görülən işlər barədə videoçarx nümayiş olundu.

Qeyd edək ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub.

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli nazirlər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Ötən ilin martında biz Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tarixi-mizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz, nisbətən, qısa zamanda – təxminən, ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin "yaşıl enerji" mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin "yaşıl enerji"yə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim.

Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, artıq göstərildiyi kimi, bu, regionda ən böyük günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır.

Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün – bir qədər sonra biz çox qısa zamanda 1 qiqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq. Ona görə də bugünkü tədbiri Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qardaşlıq əlaqələrinin parlaq nümunəsi hesab edirik.

Mən bu gün bizimlə birgə olduqlarına görə əziz qonaqlarımıza minnətdarlığımı bildirmək istərdim. Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir.

Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir. Dənizdəki yataqlardan ilk neft ötən əsrin ortalarında istehsal olunub. İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir.

Ona görə də mən ümidvaram və tam əminəm ki, bizim bütün planlarımız həyata keçəcək. Bugünkü mərasim faktiki olaraq bunu nümayiş etdirir. Mən həm də ümidvaram ki, bugünkü mərasim yaxşı nümunədir və Birləşmiş Ərəb Əmirliklərindən olan bir çox şirkətlərə gəlib bizimlə işləmək üçün yaxşı siqnal olacaq. Mən bilirəm ki, bu yaxınlarda bizim milli neft şirkətlərimiz, enerji şirkətlərimiz ADNOC və SOCAR artıq Azərbaycanda rəsmi olaraq tərəfdaş olublar. Bilirəm ki, Birləşmiş Ərəb Əmirliklərində və digər ölkələrdə birlikdə işləmək üçün planlar var. Beləliklə, biz indi, həqiqətən də, ölkələrimiz, hökumət strukturlarımız və şirkətlərimiz arasında əməkdaşlığın inkişafının yeni mərhələyə yüksəldiyini görürük.

Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun, təqribən, 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin, eyni zamanda biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır.

Əlbəttə ki, növbəti illərdə biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac edəcəyik. Bu məqsədlə biz bu potensialı yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə çox yaxından işləyirik.

Azərbaycandakı investisiya mühitinə gəldikdə mən artıq qeyd etdim ki, ölkəmizin iqtisadiyyatı çox sabitdir. Son 20 il ərzində bizim ümumi daxili məhsulumuz dörd dəfədən çox artıb. Biz birbaşa xarici borcumuzu ümumi daxili məhsulun 10 faizindən aşağı səviyyəyə salmağa və iyirmi il bundan əvvəl 50 faizə yaxın olan yoxsulluq səviyyəsini 5,5 faizə endirməyə nail olmuşuq.

Beləliklə, bu onu göstərir ki, neft və qaz ixracından daxil olan gəlirlərin ədalətli paylanılması tamamilə yeni reallığı yaradır. Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirilməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq. Bu, çox zəruridir. Çünki mən bizim yalnız "Masdar" şirkəti ilə icra etməyi planlaşdırdığımız layihələri qeyd etdim. Bir çox digər investisiya təklifləri var və onların bəziləri artıq son mərhələsindədir.

Biz əlbəttə ki, milli enerji şəbəkəsini gücləndirməliyik və qeyd etdiyim kimi, dövlət proqramı icra olunur. Biz hər şeyi vaxtında edəcəyik. Biz artıq maliyyə resursları ayırmışıq ki, bərpaolunan enerji mənbələrini istehsal edən investorlarımız özlərini tamamilə rahat hiss etsinlər.




Eyni zamanda sizə məlumat vermək istəyirəm ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da "yaşıl enerji"yə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır.

Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq "yaşıl enerji zonası" kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir.

Bunu ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır.

Beləliklə, bunlar gələcək üçün planlardır. Əlbəttə, bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var.

Biz əsas daşıma infrastrukturunu, Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3500 kilometrlik qaz boru kəmərini vaxtında istismara vermişik. Bu da daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaq.

Əlbəttə ki, planlarımız enerji dəhlizini, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin – Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır.

Beləliklə, bunlar bizim planlarımızdır və müstəqillik tariximiz bizim təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki bizim siyasi iradəmiz var, bizim cəmiyyətdə birlik var. Bizim Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Ərəb Əmirliklərindən olan şirkətlər kimi möhtəşəm tərəfdaşlarımız var.

Əminəm ki, biz bütün məqsədlərimizə nail olacağıq və gələcəkdə bu kimi daha çox mərasimlər keçirəcəyik. Bizimlə burada olduqları üçün qonaqlarımıza bir daha təşəkkürümü bildirmək və bu əlamətdar tədbir münasibətilə hamımızı təbrik etmək istəyirəm.

Çox sağ olun.

***

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri **Sultan Əhməd Əl-Cabir** mərasimdə çıxış edərək dedi:

– Salam-əleyküm.

Zati-aliləri cənab Prezident Əliyev.

Hörmətli qonaqlar, əziz dostlar, xanımlar və cənablar.

Həqiqətən də, Azərbaycana, Bakıya qayıtmaq və olduqca önəmli bir tədbirdə iştirak etmək xoşdur. Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir.

İcazə verin, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Zati-aliləri Prezident Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırım.

Cənab Prezident, bu ilin əvvəlində Azərbaycana gəlişimiz və indi də bu olduqca vacib mərasimdə layihənin gerçəkləşdirilməsində iştirak etməyimiz, həqiqətən də, bizim hörmətimizin, ehtiramımızın və götürdüyümüz öhdəliyə sadiqliyimizin nümunəsidir.

Mən "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb

*Ardı 2-ci səhifədə*

Əmirliklərinin ən yüksək səviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsin. Bu, həqiqətən də, böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir.

Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsur və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl" iqtisadi artım üçün strateji addım idi.

Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində, bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə "Masdar" kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. "Masdar", bildiyiniz kimi, dünyanın aparıcı məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir.

Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir. Bu, 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək və karbon dioksid emissiyalarını ildə 200 min ton azaldacaq layihədir.

Zati-aliləri, bir az əvvəl qeyd etdiyiniz kimi, biz bu gün, həmçinin iki günəş və bir külək enerji istehsalı üzrə saziş imzalayacağıq ki, bu da gündə əlavə 1000 meqavat təmiz enerji deməkdir. Bunlar olduqca önəmli addımlardır. Bunlar konkret addımlardır ki, biz Azərbaycanda razılaşdırılmış 10 qiqavat gücündə bərpaolunan enerji layihələrini – külək və günəş enerjisinin inkişafı planımızı həyata keçirək. Bu, kifayət qədər sürətlə həyata keçirilən işdir.

Zati-aliləri, BMT-nin İqlim Dəyişikliyi üzrə COP-28 Konfransına cəmi 34 gün qalıb və bugünkü tədbir Paris Sazişinin məqsədlərini əyani reallığa çevirmək üçün lazım olan praktiki tədbirləri mükəmməl şəkildə təcəssüm etdirir. Bu il həlledici məqamdır. Mən deyərdim ki, COP-28 Paris sazişindən sonra əldə edilən irəliləyişləri nəzərdən keçirən qlobal bir xülasə ili olduğu üçün iqlim fəaliyyəti istiqamətində kritik məqamdır.

Qeyd etmək lazımdır ki, Paris Konfransı dünyanı ortaq bir hədəf ətrafında birləşdirdi. Bu, ümumi məqsəd uğrunda millətləri və ölkələri birləşdirmək istiqamətində uğurlu bir addım idi. Lakin o vaxtdan bəri qlobal miqyasda aparılan təhlilləri nəzərdən keçirsək, görərik ki, biz tam məqsədə gedən yolda hələ də inamla irəliləmirik. Bərpaolunan enerjiyə yatırılan investisiyalar artmaqda davam edir. Bu il dünyada əlavə rekord 500 qiqavat istehsal edildi. Lakin, bilirsiniz, dünya 2030-cu ilə qədər bərpaolunan enerji gücünü üç dəfə artırmalıdır ki, 1,5 səviyyəsi əlçatan olsun.

İlk dəfədir ki, biz praktiki addımları COP-28 səviyyəsində cəmiyyətdə ifadə edirik, yəni, emissiya yeddi il ərzində 22 qiqaton azaldılmalıdır. Mən əminəm ki, bu, çox böyük bir vəzifə, işdir. Bu, bütün millətlər, bütün ölkələr üçün bir vəzifədir. Heç bir ölkə, xalq, qurum bu işin öhdəsindən təkbaşına gələ bilməyəcək. Bizə hər bir ölkənin Azərbaycan kimi təmiz enerji sahəsində müəyyən edilmiş məqsədlərlə energetikaya keçid üçün aydın planlar hazırlaması lazımdır. Rekord müddətdə bir sıra tutarlı layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin etmək üçün iqlim maliyyələşdirməsində yenilikçi yanaşmalara ehtiyacımız var. Azərbaycandakı layihələrdə, bu layihədəki tərəfdaşlıqda da yanaşmalar məhz bu istiqamətdədir.

Hörmətli iştirakçılar, əziz dostlar.

Bu layihənin ərsəyə gəlməsində, onun reallaşdırılmasında əməyi keçən bütün tərəfdaşlara – Əbu-Dabi İnkişaf Fonduna, Asiya İnkişaf Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinə təşəkkür edirəm. Əslində, bu, özünəməxsus, bənzərsiz bir modeldir və ötən illər ərzində "Masdar"ın işləyib hazırladığı bir yanaşmadır. Bu, çoxtərəfli və ikitərəfli qurumların, xüsusən dünyanın müxtəlif yerlərindən aidiyyəti tərəflərin bir araya gəlməsinin nümunəsidir. Xüsusən planetimizin Cənub yarımkürəsində real nəticələr əldə etmək üçün dünyanın hər yerindən yenilikçi qarışıq maliyyə vəsaitlərinin bir araya gəlməsinin ələ bir təzahürü, nümunəsidir. Bu, "Masdar"ın 40-dan çox ölkədə bərpaolunan enerji layihələrini uğurla həyata keçirmək üçün, təxminən, iyirmi ildir, inkişaf etdirdiyi layihə maliyyələşdirməsində katalizator modelidir. Rəhbərlikdən aldığımız dəstək də olamətdardır ki, bu dəstək vasitəsilə biz 40-dan çox ölkədə qısa müddət ərzində bu qədər layihəni həyata keçirmişik.

Azərbaycan Hökumətinin Azərbaycanın külək və günəş potensialından istifadə etmək, eyni zamanda sistemin baza gücünü təbii qazla təmin etmək baxışı enerjini daha təhlükəsiz, daha əlçatan və dayanıqlı edəcək. Həm "Masdar", həm də Birləşmiş Ərəb Əmirlikləri bu səyahətdə Sizin tərəfdaşınız olmaq arzusundadır. Bir çox digər ölkələrdə də belə layihələri həyata keçirmək əzmindəyik. Biz Azərbaycanla və dünyanın bir çox ölkələri ilə iddialı məqsədlərə nail olmaq üçün 2030-cu ilə qədər ən azı 100 qiqavat təmiz enerji istehsal etmək məqsədilə bütün qitələrdə sizinlə və digər həmfikir tərəfdaşlarla, təşkilatlarla, ölkələrlə işləməyə davam etməyin intizarındayıq.

Bu, həmçinin dünyada istifadə olunan enerji resurslarının karbonsuzlaşdırılması üzrə həmfikir tərəfdaşlarla birgə işləmək deməkdir ki, bu, əslində, gələcək rifah baxımından önəmli vasitə olacaqdır.

Zati-aliləri, ötən illər ərzində mən dünyanın müxtəlif yerlərində insanlarla görüşmüşəm, söhbət etmişəm. Son bir ildə deyə bilərəm ki, dünyanın hər yerindən, cəmiyyətin hər bir təbəqəsindən olan bir çox insanla, hökumət nümayəndələri, özəl sektor, biznes dairələri, elmi dairələr, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və kifayət qədər məşhur şəxslərlə söhbət etmişəm. Bu söhbətlər əsnasında, bütün bu təmaslarda biz çox dərindən başa düşürük ki, qlobal iqlim dəyişikliyi ilə bağlı hansı addımlar atılmalıdır. Ona görə biz çox ümid edirik ki, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransı bizə iqlim dəyişiklikləri ilə bağlı çox ciddi çağırışlara cavab vermək fürsəti yaradacaq.

Hazırda gündəlikdə olan problemlərin öhdəsindən gəlmək üçün bir sıra texnoloji vasitələr var. Amma bu texnologiyaların bir çoxu ilkin yaranma mərhələsindədir. Digər tərəfdən, qlobal maliyyə məsələsi də var. Bu qlobal maliyyə vəsaitlərinin rəva görülə biləcək, əlçatan ola biləcək səviyyəyə qaldırılması vacibdir. Təmaslarımızdan ibrət götürərək bir reallığı qəbul etmişik ki, əgər biz iqlim dəyişikliyi ilə bağlı maliyyə məsələsini həll etməsək, dünya yenə də qeyri-müəyyənlikdə qalacaq. Odur ki, biz yeni iqlim dəyişikliyi çərçivəsi yaratmaq istəyirik ki, onun daxilində çoxtərəfli inkişaf banklarını, beynəlxalq maliyyə təsisatlarını bir araya gətirmək mümkün olsun, bu maliyyəyə çatımlılıq və istifadə edilə biləcək olsun.

Bilirsiniz, eyni zamanda BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransını fərqləndirən cəhət bizim elə təməldən yanaşmamızdır. Bu, əməkdaşlıq, tərəfdaşlıq və tammiqyaslı inklüzivlikdir ki, onun sayəsində biz kollektiv olaraq iqlim dəyişikliyi çağırışlarının öhdəsindən gələ bilərik. Bu olmasa, cəhdlərimiz uğursuz olacaq. Paris Sazişindən ötən yeddiillik müddətə baxsaq, bəli, müəyyən irəliləyiş var, amma eyni zamanda qoyulmuş məqsədlərdən hələ çox uzağıq.

Paris Sazişi dünyanın bir saziş çərçivəsində bir araya gəlməsi baxımından vacib idi. Amma BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında biz istəyirik ki, Paris Sazişində qeyd olunanları praktiki, praqmatik nəticə yönümlü fəaliyyətlərə çevirək. Biz istəyirik ki, daha az söz və daha çox əməli iş olsun. Biz real dünya üçün real cavablar, həllər, nəticələr istəyirik. Məhz buna görə bu, hər kəsə açıq dəvətdir, hər kəs ki, buna töhfə verə bilər. Dubaya gəlsinlər və bu şüurla gəlsinlər. Ümid, nikbinlik, tərəfdaşlıq, birlik və həmrəylik olsun. Əgər biz, həqiqətən də, bu istiqamətdə paradiqma dəyişikliyi yaratmaq istəyiriksə, bu, bir uğur resepti olacaq.

Zati-aliləri, mən yenə də Sizə, Sizinlə əməkdaşlığa, Sizin liderliyinizə, nikbinliyinizə, yaradıcılığınıza və işləri həyata keçirmək coşqunuza güvənirəm. Üzümüzə gələn həftə ərzində Sizin nümayəndə heyətinizi Birləşmiş Ərəb Əmirliklərində COP-28 konfransından öncə nazirlər görüşündə, həmçinin BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında görmək intizarındayam. Biz istəyirik ki, burada sərgilənən o ruh, həqiqətən də liderlik ruhu, bu layihədə olan o ruh, pozitivlik, tərəfdaşlıq, işbirliyi, həmrəylik ruhu, həmçinin COP-28 Konfransında sərgilənsin və qütbləşməyə, parçalanmağa artıq yetər deyək. Üzləşdiyimiz iqlim dəyişiklikləri çağırışlarının öhdəsindən gəlmək üçün dünyanı bir yol xəritəsi üzərində birləşdirmək vaxtıdır.

Zati-aliləri, mən Sizə nə qədər təşəkkür etsəm də azdır ki, Siz bizə bu qədər etimad göstərmisiniz, bizə fürsət vermisiniz. Əvvəl də qeyd etdiyim kimi, bu, olduqca müdrik bir baxış, müdrik bir liderlikdir. Bu, həmçinin Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın lider baxışıdır ki, belə layihələr bu qədər qısa vaxt ərzində ərsəyə gəlib. Sizin dəstəyiniz, hökumətinizin də göstərdiyi yardım və dəstək sayəsində biz bu qədər qısa vaxt ərzində böyük nailiyyətlərə imza atdıq. Mən Sizə söz verirəm ki, bu bizim tərəfdaşlığımızın DNT-si olacaqdır.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə olan təmaslarında hər kəsə və xüsusilə Sizə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə saldılar.

"Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.



## Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlər imzalanıb

Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzaladılar.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, investisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi daxildir.



Prezident İlham Əliyev, ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin tədbirdə iştirakına görə bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığını çatdırmağı xahiş etdi.

Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı.

Prezident İlham Əliyev bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi və gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi qüdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.

Sultan Əhməd Əl-Cabir vurğuladı ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirdi, eyni zamanda vurğuladı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsini yaradılması işinə sadiqlik nümayiş etdirir.

**AZƏRTAC**

# “Naxçıvandan başlayan yol” mövzusunda konfrans keçirilib





Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Naxçıvandan başlayan yol” mövzusunda konfrans keçirilib. Konfrans Naxçıvan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə baş tutub.

Konfrans iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Muzeyinə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid eksponatlarla tanış olublar.




“Naxçıvan Saray”da öz işinə başlayan konfransda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bu il ölkəmizdə xüsusi əlamətdar günlər yaşadığımızı bildirib. Vurğulayıb ki, 2023-cü ildə “Heydər Əliyev İli”ni və Ulu Öndərimizin layiqli davamçısı cənab İlham Əliyevin Prezident seçilməsinin 20 illiyini böyük uğurlarla qeyd edirik. Bu il Naxçıvanda səlahiyyətli nümayəndəlik institutu yaradılıb. Bu il ərzində biz respublika və beynəlxalq əhəmiyyətli qonaqlar qarşılamışıq. Növbəti ildə isə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyini geniş beynəlxalq və ölkə miqyaslı tədbirlərlə qeyd edəcəyik.



Səlahiyyətli nümayəndə çıxışında qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda çox çətin bir dövrdə siyasi hakimiyyətə gəlib. Bu elə bir dövr idi ki, ölkəmiz iqtisadi cəhətdən geridə qalmış və kadr potensialı sovet hakimiyyətinin repressiya maşınının qurbanı olmuşdu. Ulu Öndərimizin strateji uzaqgörən siyasəti nəticəsində Azərbaycan qısa zamanda bütün sahələrdə davamlı inkişafa nail oldu. Bu inkişafın mənəvi toxumları isə məhz ötən əsrin 90-cı illərində atılmışdı. Ulu Öndərimiz həm mənəvi dəyərlərimizi milli kadrlar formalaşdırmaqla, apardığı milliləşmə siyasəti nəticəsində yenidən dirçəltdi.

Ölkə Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycanın müstəqilliyinin təməli məhz ötən əsrin 90-cı illərində Naxçıvanda atılıb. Sonrakı dövrlərdə Ümummilli Liderimizin siyasi irsinə sadiqlik Azərbaycanı regionda və beynəlxalq miqyasda lider dövlətə çevirdi. Prezident cənab İlham Əliyevin çoxvektorlu siyasəti nəticəsində bütün sahələrdə davamlı inkişafa, o cümlədən ölkə iqtisadiyyatında dəfələrlə artıma nail olundu.



Səlahiyyətli nümayəndə vurğulayıb ki, biz Vətən müharibəsində qazanılmış zəfərin fonunda yeni bir mühüm platforma yaratmışıq. Söhbət Zəngəzur dəhlizindən gedir. Bu elə bir layihədir ki, Naxçıvan regionda mühüm nəqliyyat və logistika mövqeyinə malik olacaq. Qardaş ölkənin prezidenti ilə ölkə başçısının Naxçıvanda keçirdikləri görüşdə Rəcəb Tayyib Ərdoğanın da vurğuladığı kimi, Naxçıvan Türkiyə üçün də logistika mərkəzi olmaq öhdəliyini üzərinə götürə bilər.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” son dövrlərdə Azərbaycanda bəlli bir regionun inkişafını nəzərdə tutan və geniş təfsilatları ilə icra olunan ən böyük proqramdır. Proqram çərçivəsində bir çox sahələrin, o cümlədən enerji, kənd təsərrüfatı və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı istiqamətində mühüm layihələr reallaşdırılacaq. Naxçıvanda 12 sənaye zonası yaradılacaq. Muxtar respublikada vergi-gömrük məsələlərində xüsusi güzəştlər nəzərdə tutulan və maaşların bir qisminin subsidiyalaşdırılmasını özündə birləşdirən bir konsepsiya hazırlanır və 2024-cü ilin ilk hissəsində reallaşdırılması nəzərdə tutulur.



Fuad Nəcəfli sahibkarlığın inkişafı, investisiya qoyuluşlarının qarantiyaya alınması və sair kimi tədbirlərin Naxçıvanda özəl sektorun inkişafına mühüm töhfə verəcəyini qeyd edib, keçirilən tədbirin bu baxımdan əhəmiyyət daşıdığını bildirib və konfransın işində uğurlar arzulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev müasir Azərbaycanın banisi Heydər Əliyevin şərəfli həyat yoluna toxunub. O qeyd edib ki, son 20 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilib. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılıb. Bütün bu nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin başladığı və möhtərəm Prezident cənab İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.



Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşova, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev çıxış edərək muxtar respublikada müvafiq sahələr üzrə icra olunan və icrası nəzərdə tutulan layihələr barədə məlumat veriblər.

Bildirilib ki, cari ilin 9 ayı ərzində muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara 100 milyon manatdan çox kreditlər verilib. Həmçinin Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən Naxçıvanda fəaliyyət göstərən bütün banklara 15 milyon manat vəsait ayrılıb. Sahibkarlara göstərilən xidmətlərin yaxşılaşdırılması və effektivliyinin artırılması, bu sahədə operativliyin və rahatlığın təmin olunması baxımından Naxçıvan Muxtar Respublikasının rayonları üzrə KOB dostları fəaliyyətə başlayıb. Hazırda 7 bankın 18 filialı, 2 banka məxsus 7 bank şöbəsi, 2 bank olmayan kredit təşkilatı və 1 kredit ittifaqı fəaliyyət göstərir. Cari ilin ötən dövründə yaradılmış əlverişli mühit sayəsində sığorta şirkətlərinin sayında da əhəmiyyətli artım olub və hazırda muxtar respublikada onların sayı 6-ya çatıb. Qarşıda duran hədəf kimi investorların Naxçıvana cəlb edilməsi ilə bağlı ardıcıl işlərin görüldüyü diqqətə çatdırılıb, Naxçıvanda orqanik qida məhsullarının becərilməsi üçün ekoloji tarazlığın qorunduğu bildirilib.

Sonra tədbirdə Naxçıvan Muxtar Respublikasının bank və ödəniş infrastrukturunu əks etdirən videoçarx, Ulu Öndər Heydər Əliyevin mənalı ömür yolu və zəngin fəaliyyətindən bəhs olunan film nümayiş etdirilib.

Tədbir sahibkarlar üçün yaradılan müzakirə platforması ilə yekunlaşıb.

**“Şərq qapısı”**

## Səlahiyyətli nümayəndə “Bir millət iki dövlət” forumunun iştirakçıları ilə görüşüb





Oktyabrın 26-da Naxçıvanda keçiriləcək Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə “Bir millət iki dövlət” forumundan əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forum iştirakçıları ilə görüşüb. Forumun əhəmiyyətinə və Azərbaycan-Türkiyə əlaqələrinə diqqəti çəkən səlahiyyətli nümayəndə əməkdaşlığın müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi üçün potensialın olduğunu bildirib.

İğdır valisi Ercan Turan səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkür edib, qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivlərindən bəhs edib.

Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attar göstərilən dəstəyə görə təşəkkür edib, forumun əhəmiyyətini vurğulayaraq bu cür tədbirlərin əməkdaşlığın inkişafındakı rolundan danışıb. Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**“Şərq qapısı”**



# Naxçıvanda “Bir millət iki dövlət” forumu keçirilib











Oktyabrın 26-da Naxçıvanda Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Bir millət iki dövlət” forumu keçirilib.

Heydər Əliyev Sarayında keçirilən forumda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Türkiyə xalqının milli lideri Mustafa Kamal Atatürkün, Azərbaycan və Türkiyə şəhidlərinin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib, qardaş ölkələrimizin Dövlət himnləri səsləndirilib.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, Azərbaycan-Türkiyə dostluq və qardaşlığını əks etdirən qısa filmlər nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, “Şərqin qapısı” Naxçıvanda



Türk dünyasının böyük oğlu Heydər Əliyevin 100 illik yubileyi ilə yanaşı, həm də qardaş Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünü qeyd edirik.

Vurğulanıb ki, milli liderlərimiz Heydər Əliyev və Mustafa Kamal Atatürkün müəyyənləşdirdiyi, bu gün isə hər iki ölkə prezidentlərinin iradəsi ilə davam və inkişaf etdirilən Azərbaycan-Türkiyə qardaşlığı forumun əsas ideyasını təşkil edir. Türkiyə xalqının milli lideri Mustafa Kamal Atatürkün ***“Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir”*** fikirlərini ***“Bir millət, iki dövlət”*** fəlsəfəsi ilə yeni mərhələyə yüksəldən Ümummilli Liderimiz Heydər Əliyev xalqlarımızın milli-mənəvi dünyasının birbiri ilə sıx bağlılığını Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında əsas faktor kimi götürüb. Ümummilli Liderimiz Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərini ölkəmizə rəhbərliyi dövründə daha da möhkəmləndirib. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə, bölgə üçün önəmli enerji və nəqliyyat layihələrinin əsası qoyulub, xarici ticarət dövriyyəsinin həcmi dəfələrlə artıb. 1993-2003-cü illərdə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə etdiyi müxtəlif səviyyəli səfərlər Ulu Öndərin xarici siyasət konsepsiyasında qardaş ölkəyə verdiyi əhəmiyyətin daha bir göstəricisidir.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, bu gün ortaq kök, dil və din birliyi ilə yanaşı, qarşılıqlı maraqlara xidmət edən ikitərəfli siyasi münasibətlər və strateji tərəfdaşlıq da

*Ardı 5-ci səhifədə*





ölkələrimiz arasındakı əlaqələrin mahiyyətini tam ifadə edir. Hazırda Azərbaycan-Türkiyə əməkdaşlığı ölkə prezidentlərinin iradəsinə uyğun olaraq yeni inkişaf mərhələsindədir. Qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır, bütün sahələrdə əlaqələr uğurla inkişaf etdirilir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr, Zəngəzur dəhlizinin açılması ilə yaranacaq yeni reallıqlar bir daha təsdiq edir ki, Azərbaycan-Türkiyə qardaşlığı regionda sabitliyin əsas təminatıdır. Bunların davamı kimi ötən ay – sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla Naxçıvanda görüşməsi, İğdır-Naxçıvan Qaz Kəmərinin təməlinin qoyulması və həyata keçirilən digər tədbirlər də mühüm tarixi hadisəyə çevrildi.






Fuad Nəcəfli “Bir millət, iki dövlət” forumunun işinə uğurlar arzulayıb, təşkilatçılara və iştirakçılara təşəkkür edib.

Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attar Bakıdan başlayan forumun Naxçıvanda davam etdirildiyini və Ankarada başa çatacağını bildirərək böyük mesaj verdiyini diqqətə çatdırıb. Təmsil etdiyi qurumun fəaliyyətindən söz açan Aygün Attar fondun 26 il öncə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını vurğulayıb. Qeyd edib ki, sözügedən fond Heydər Əliyev irsinin təbliğində müstəsna rol oynayır.

Natiq Naxçıvanın geostrateji və coğrafi əhəmiyyətindən də söz açaraq vurğulayıb ki, Zəngəzur dəhlizi bölgədəki xalqların rifahını daha da artırmaqla yanaşı, sülhün də bərqərar olmasında çox önəmli rola malik olacaq.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Adil Əliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyini qeyd etdiyimiz 2023-cü ilə bir başqa tarixi də əlavə etdik. Azərbaycan 100 illik problemə – erməni separatizminə son qoydu. Azərbaycan ərazi bütövlüyünü təmin etdi, Qarabağ üzərindəki suverenliyini bərpa etdi. Bu, Azərbaycan və Türk dünyası tarixinə qızıl hərflərlə yazılacaq.

“TÜRKSOY”un baş katibinin köməkçisi Seyid Yusif qeyd edib ki, biz fərqli bölgələrdə yaşasaq da, bir bütövün hissələriyik. Azərbaycan-Türkiyə dostluğu dosta sevinc, düşmənə gözdağı olmaqla bütün Türk dünyasına önəmli qardaşlıq, birlik mesajları verir.

Forumda Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi, professor Fəxrəddin Altunun videomüraciəti yayımlanıb. Qardaş ölkələrimizin dövlət başçılarının Naxçıvana sonuncu səfərini xatırladan Fəxrəddin Altun nəqliyyat və enerji sahələrində əldə olunan yeni razılaşmaların Zəngəzur dəhlizi ilə daha da inkişaf edəcək münasibətlərimizdə yeni üfüqlər açacağını diqqətə çatdırıb.

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri, professor Hicran Hüseynova Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin inkişafında Ümummilli Liderimizin önəmli rolundan söz açıb, forumun təşkilində fəal iştirakına görə Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attara təşəkkürnamə təqdim edib.

İğdır valisi Ərcan Turan Ulu Öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb, forumun təşkilatçılarına təşəkkür edib və uğurlar arzulayıb.






Forum Türkiyənin Girəsun Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Yalçın Sarıkayanın moderatorluğu ilə “Zəngəzur dəhlizi və bölgəyə təsiri” adlı panel müzakirələri ilə öz işini davam etdirib.

Ehtiyatda olan polkovnik Atilla Gülər Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə “Qafqaz: Zəfər, xəyanət və hüzn (1918-1919)” kitabını təqdim edib.

Sonda səlahiyyətli nümayəndə və forum iştirakçıları birgə xatirə fotosu çəkdiriblər.

**“Şərq qapısı”**

## Milli Məclis sədrinin müavini naxçıvanlı gənclərlə görüşüb



Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini, Gənclər və İdman Komitəsinin sədri Adil Əliyevin gənclərlə “Heydər Əliyev müasir Azərbaycan gənclər siyasətinin banisidir” mövzusunda görüşü keçirilib.

Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində keçirilən görüşdə əvvəlcə Dövlət Himni səsləndirilib, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Adil Əliyev tədbirdə çıxış edərək bildirib ki, ölkəmizdə dövlət gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ölkəmizdə gənclərə və gənclər siyasətinə böyük önəm verildiyini bildirən vitse-spiker ötən dövrdə gənclər siyasəti sahəsində görülən sistemli işlər çərçivəsində Gənclər və İdman Nazirliyinin yaradılmasını, Gənclər Fondunun təsis edilməsini, “Gənclər siyasəti haqqında”, “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsini, bu sahədə Dövlət proqramlarının həyata keçirilməsini, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsini qeyd edib.

Adil Əliyev gənc nəslin savadlı və vətənpərvər ruhda yetişdirilməsinin ölkəmizdə bu sahədə aparılan siyasətin əsas hədəflərindən olduğunu bildirib, bu məqsədlə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın əhəmiyyətindən bəhs edib.



Gənclər siyasətinin Vətən müharibəsi dövründə də öz uğurlu nəticəsini verdiyini bildirən Milli Məclisin sədr müavini Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin əsas hərəkət qüvvəsinin gənclər olduğunu, gənclərin ön və arxa cəbhədə böyük qəhrəmanlıqlar göstərdiyini qeyd edib.

Sonra görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Sonda Vətən müharibəsi qazilərinə hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini keçirilən görüşlə bağlı “Şərq qapısı” qəzetinə bunları deyib:

– Bildiyiniz kimi, 2023-cü il Azərbaycanda “Heydər Əliyev İli” elan olunub. Bununla bağlı Milli Məclisin sədr müavini, Gənclər və İdman Komitəsinin sədri kimi müxtəlif bölgələrdə gənclərlə görüşlərimiz keçirilir. Bu görüşlərdə, əsasən, Ulu Öndərin gənclər siyasəti ilə bağlı gördüyü mühüm işləri gənclərimizə aşılayırıq. Naxçıvandakı bugünkü görüşümüz də Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə verdiyi töhfə ilə bağlıdır. Düşünürəm ki, dahi şəxsiyyət Heydər Əliyevin gənclərə olan böyük ümidi artıq özünü doğruldub və bu gün əldə etdiyimiz uğurların təməlində də bu dayanır. Naxçıvanlı gənclərlə görüşümüzdə də dahi şəxsiyyət Heydər Əliyevin bu sahədəki fəaliyyətindən bəhs etdik.

**Səbuhi HƏSƏNOV**

İki onillik qoca tarix üçün böyük bir zaman kəsiyi deyil. Amma Cənubi Qafqazın ən güclü dövlət olan Azərbaycan üçün cənab İlham Əliyevin 20 illik prezidentliyi dövrü həm də əsrə bərabər işlərin görüldüyü, suverenliyimizin təmin edilməsi ilə yaddaşlara yazılan əlamətdar ayların, günlərin məcmusudur. Bəli, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında gözlərimiz önündə şərəfli, parlaq bir zəfər gündəliyi yazılır. İllər sonra oğul-uşaqlarımız, nəvə-nəticələrimiz bu yaşananları tarix kitablarından oxuyacaq, biz isə onlara dövrün şahidləri kimi qürurlu günlərimizin fəxarə-

# XXI əsrin qızıl iyirmiliyi və yaxud cənab İlham Əliyevin dünya boyda Azərbaycan sevgisi



tindən bəhs edəcəyik. XXI əsrin sərkərdəsi – cənab İlham Əliyevin əllərində Şuşa, Xankəndi, Xocalı, Xocavənd – bütün Qarabağın azad səmasına yüksəldilən üçrəngli göylər gözəli, necə xoşbəxt, bəxtəvərsən sən! İndi qalib əsgərin sənə zəfər salamı verməsi halal haqqındır, ay-ulduzlu hilalım!

Mənə görə həm də bu, Azərbaycan Bayrağının zəfər paradıdır. Ona görə paradı ki cənab İlham Əliyev öz ordusu ilə erməni tapdağından azad etdiyi bütün torpaqlarda bayrağımızı ucaltdı. Başqa sözlə, Azərbaycan Liderinin sözü və imzası birdir. O, siyasi həyatında verdiyi bütün sözlərə sadiqdir. 2003-cü ildə xalqın böyük etimadı ilə Prezident seçilməsindən sonra müqəddəs kitabımız olan “Qurani-Kərim”ə və Konstitusiyaya əl basaraq and içmişdi ki, ərazi bütövlüyümüz bərpa ediləcək, üçrəngli bayrağımız işğaldan azad olunmuş bütün torpaqlarda dalğalanacaq.

Və budur... Cənab İlham Əliyev əməli işi, həyata keçirdiyi layihələri ilə tarix yazır. Bir neçə gün bundan öncə yağılardan azad edilmiş tarixi şəhərimiz olan Xankəndidən xalqa müraciəti zamanı milyonların qüruruna dönən cənab Prezident ötən 20 ili belə xarakterizə etdi: ***“Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı “Allaha şükür!” – deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz əminəm və inanırdıq ki, bu gün gələcək”.***

Qalib Komandan tarixi yaratmanın və yaşatmanın möhtəşəm örnəyini nümayiş etdirir. Ərazi bütövlüyümüzün bərpa olunması, işğalçıların torpaqlarımızdan qovulması prosesi son üç ilin hadisəsi olsa da, əslində, cənab İlham Əliyev bu böyük zəfərin konturlarını hələ 2003-cü ilin 15 oktyabrında – ilk dəfə Prezident seçildiyi gündən etibarən həssaslıqla işləyib hazırlamışdı. Bu, uzaqgörən liderin həm özü, həm də xalqı qarşısındakı hesabatı idi. İndi ötən 20 ilin Azərbaycanına nəzər saldıqda görürük ki, bugünkü uğurlarımızın təməlində 20 illik siyasi iradə və qətiyyət, Ulu Öndər Heydər Əliyevin siyasi xəttinə sadiqlik və nəhayət, cənab İlham Əliyevin qəlbindəki dünya boyda Azərbaycan sevgisi dayanır.

Qarabağ münaqişəsinin həlli ötən 20 ildə İlham Əliyev diplomatiyasının mərkəzində dayandı. Keçirdiyi bütün görüşlərdə, iştirak etdiyi tədbirlərdə dünyanın qulağına möhkəm səslə hayqırdı ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir, Qarabağ Azərbaycanın suveren ərazisidir, xalqımız və dövlətimiz heç bir vəchlə, işğalla barışmayacaq! 2019-cu ildə Soçidə, “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında isə ən sərt, ən tutarlı, milyonlarla azərbaycanlının qəlbindən qopan tarixi mesajı verdi: ***“Qarabağ Azərbaycandır və nida işarəsi”.***

Böyük Sərkərdə bu düyünün açılması – Qarabağ probleminin həlli üçün təkcə diplomatiya yox, bütün sahələrdə məqsədyönlü iş aparmışdı. O bilirdi ki, dünyada güc amili hər zaman öz sözünü deyir. Güclüsənsə, deməli, haqlısan. Güclü olmaq üçün iqtisadiyyat, ordu inkişaf etdirilməli, ideoloji cəhətdən hərtərəfli hazırlanmış yeni nəsil yetişdirmək lazım idi. Mahir siyasətçi ötən 20 il ərzində bu yolda, sözün həqiqi mənasında, cəfa çəkdi, fədakarlıq nümayiş etdirdi... Və bir gün biz gördük ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında qərarlaşıb. Ən müasir atıcı silahlar, pilotsuz uçuş aparatları, aviasiya vasitələri Silahlı Qüvvələrimizin arsenalına daxil edilib. Amma ən vacib olan qəlbində qisas və intiqam hissi ilə yaşayan, Qarabağı görməsələr də, Qarabağ eşqi ilə alışıb yanan, Ali Baş Komandanından “İrəli” əmrini gözləyən əsgər və zabitlərimiz idi. Nəyin uğrunda qan töküb can aldığını bilənlərin bir şüarı var idi: “Mövzu Vətəndirsə, gerisi təfərrüatdır”. Bax belə bir gənclik yetişdirmişdi cənab İlham Əliyev, məhz Onun 20 illik siyasi fəaliyyəti dövründə həyata keçirilmişdi bu ideoloji xətt.

Qeyri-səmimi mühitdə baş tutan görüşlər səmərə verməyəndə, ədalətsiz dünya haqlının yox, işğalçının yanında yer alanda cənab İlham Əliyevin iradəsi, qətiyyəti öz sözünü dedi. 44 gün davam edən hərbi əməliyyatla özünü “yenilməz”, qazdıqları tülkü yuvalarını isə “keçilməz” adlandıranlara dərs keçdik. Biz Ona Vətən müharibəsindən sonra həm də MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN dedik. O, hər bir azərbaycanlının Prezidenti olmaqla yanaşı, həm də ən əzizi, doğmasına çevrildi. O bu sevgini, xalq məhəbbətini 20 illik siyasi fəaliyyəti dönəmində zərrə-zərrə, qram-qram topladı. Əslində, bu, dünyada hər liderə, ölkə başçısına nəsib olan xoşbəxtlik deyil. Bu sevgi seli çoxlarının arzusu olsa da, cənab İlham Əliyevin yaşadığı, duyduğu reallıqdır.

Bu gün isə cənab İlham Əliyevin 20 illik siyasi fəaliyyətinə Xankəndi, Xocalı, Xocavənd, Ağdərə ucalığından baxırıq. Möhtərəm Prezident Xankəndidəki inzibati binanın pəncərəsini açıb otağın havasını dəyişməklə həm də göstərdi ki, şəhərə əsl azərbaycanlı ruhu, doğmalıq, təmiz hava geri qayıdıb. Murdar, iylənmiş, avantürizm və separatçılıq niyyəti güdənlərə bu torpaqlarda daha yer yoxdur. Bir vaxtlar tarixi şəhərimizdə oturub bizimlə ultimatum ritorikası ilə danışan təlxəklər, xalqımızın başına amansız müsibətlər gətirib soyqırımı aktı törədənlər indi Bakıda Azərbaycan qanunları ilə mühakimə olunurlar. Fikrimizcə, bu faktın özü belə 20 illik zəfərin təntənəsi hesab olunmalıdır.

*Bəli, 86,6 min kvadratkilometrlik ərazidə İlham Heydər oğlu Əliyevin siyasi qətiyyəti və iradəsi keçərlidir. Bu iradə bizə bundan da parlaq günlər nəsib edəcək. Cənab İlham Əliyevin iradəsi Zəngəzur dəhlizinin açılmasını reallaşdıracaq, doğma Naxçıvanın anamız Azərbaycana qovuşmasını təmin edəcək. Çünki O, sözübütöv, sülhsevər, məramı xoş LİDERdir.*

**Muxtar RZAZADƏ**

## Bahar Muradova Naxçıvan şəhərində vətəndaşları qəbul edib



*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova oktyabrın 26-da Naxçıvan şəhərində vətəndaşları qəbul edib. Qəbulda Naxçıvan şəhərindən, muxtar respublika rayonlarından olan sakinlərin müraciətləri dinlənilib.*

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, əziz xatirəsi ehtiramla yad edilib.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aidiyyəti struktur bölmələri rəhbərlərinin də iştirakı ilə baş tutan qəbulda vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Mövzular, əsasən, alimentin ödənilməsi, vəkillə təmin olunma, ataliq məsuliyyətinin yerinə yetirilməməsi, işlə təmin edilmə, uşaqla ünsiyyət, məişət zorakılığı, uşaqların himayəyə verilməsi, müalicəsi, təhsilinə dəstək və digər məsələlərlə bağlı olub.

Vətəndaşların Komitənin səlahiyyət dairəsinə aid müraciətləri dinlənilib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Həlli araşdırma tələb edən müraciətlər qeydə alınaraq, icraata götürülüb. Qeyd edək ki, görüş mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən keçirilib.

***Bahar Muradova – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri:*** – Qəbullarda bir qayda olaraq maddi-iqtisadi problemlər, ailə üzvləri arasında ailədaxili məsələlər olaraq aparıcı istiqamətlər var. Bu gün də bu istiqamətdə məsələlərlə bağlı müraciətlər oldu. Xüsusilə rəsmi boşanmış xanımlar bu gün daha çox müraciət etmişdilər. Müraciətlər məhkəmə prosesləri, uşağın hansı valideynlə qalması, əmlak məsələləri bu və ya digər psixoloji problemlərlə bağlı oldu. Əsas mövzu boşanma və onların fəsadları idi. Əlbəttə, biz məsələlərlə bağlı aidiyyəti qurumlara müraciət edəcəyik. Əvvəlcə onlara düzgün məsləhət və yönləndirmə etmək lazımdır ki, onlar aidiyyəti üzrə məsələlərin həllinə çalışsınlar. Məhkəmələlik məsələlər çoxdur. Xüsusilə övladları təhsil imkanlarından məhrum olan ailələr var idi. Onlara müvafiq dəstək xidmətləri göstəriləcək. Ən əsası belə məsələlərlə üzləşən şəxslərin dövlət orqanlarına müraciət etmək problemi olduğunu hiss etdim. Bu mənada ki, insanların özləri bunu məqsədəuyğun hesab etmirlər. Təəssüf ki, bu günə qədər onlar problemləri ilə bağlı aidiyyəti qurumlara müraciət etməyiblər. Əksəriyyəti ilk dəfə idi, problemləri ilə bağlı müraciət edirdi. Başqa rayonlarda dəfələrlə müvafiq qurumlarda olurlar, sonda bizə üz tuturlar. Amma burada belə məsələlər olduğu halda heç bir yerə müraciət olunmayıb. Bu özü onu göstərir ki, bu cür qəbulların daha tez-tez keçirilməsinə ehtiyac var. Xüsusilə insanların həyatının bu hissəsi daha çox diqqətdə saxlanılmalıdır. Çünki belə olduğu halda iqtisadi problemlər təkcə ailənin dağılmasına deyil, həm də psixoloji problemlərə gətirib çıxarır ki, bu da, son nəticədə, daha ağır fəsadlar verir. Üzə çıxan məsələ ondan ibarətdir ki, bütün bu kimi problemlərin mövcudluğuna səbəb erkən nikahdır, həmçinin təhsilin tam olmamasıdır. Ailədaxili münaqişələrdə ədalətsiz mövqenin tutulması son zamanlar ailələrdə kök salıb. Ona görə düşünürəm ki, sosiallaşma olmalıdır ki, belə məsələlərlə bağlı qadınların müraciət etmələri problem olmasın. İstənilən dövlət orqanı və ya hər hansı bir ictimai quruma müraciət etmək lazımdır ki, məsələlərlə məşğul olunsun. Müraciət olunmadıqca problemlər qapalı qalır və getdikcə daha ağır nəticələrlə sonlanır.

Qəbula gələn 40 nəfərlə görüşdük, əksəriyyəti gənc xanımlardır; bir neçə uşaqla, təhsilsiz, işsiz. Belə xanımlara təkcə məsləhət yox, həm də yardım lazımdır ki, məsələlərin öhdəsindən gələ bilsinlər. Çalışdıq əksəriyyətinə doğru istiqamət göstərək. Bir qismi ilə aidiyyəti qurumlarla birlikdə işləyəcəyik. Ən əsası odur ki, yerli komitə ilə birlikdə taleləri sona qədər izləyəcəyik.

**Gülcamal TAHİROVA**
**Ceyhun MƏMMƏDOV**

## Naxçıvanda “Ulu Öndər: dəyərlərimizin xilaskarı” adlı üçgünlük seminar keçirilir



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvanda “Ulu Öndər: dəyərlərimizin xilaskarı” adlı üçgünlük seminara start verilib. Açılış mərasimindən əvvəl Ümummilli Liderin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri qoyulub. “Naxçıvan Saray”da davam edən tədbirdə ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxış edərək bildirib ki, Ulu Öndərin yüzilliyi münasibətilə bu il Fond tərəfindən Azərbaycanın bölgələrində ilboyu müxtəlif tədbirlər həyata keçirilib. Bölgə gəncləri Ulu Öndərin mənəvi dəyərlərimizin qoruyucusu kimi gördüyü böyük işləri barədə məlumatlandırılıb.

Mehman İsmayılov onu da bildirdi ki, uzun illərdir, blokadada olan Naxçıvana Zəfərdən sonra yeni qapılar açılır. Vətən müharibəsində naxçıvanlı gənclər də öz şərəfli borclarını yerinə yetirərək torpaqlarımızı azad edib, bu işıqlı yolun təməlini qoyublar. Həmin gənclərin davamçıları kimi yetişən nəsil də öz üzərinə düşəni etməyə qadirdir. İşğaldan azad edilən torpaqları ziyarət etdikcə orada necə gözəl dini-tarixi abidələrimiz olduğunu və dövlətimizin din fərqi qoymadan həmin abidələrə necə diqqət göstərib düşmənin xarabaya çevirdiyi abidələri bərpa etdiyini gördük. Cənab Ali Baş Komandanın həmin ərazilərdə olanda tarixi abidələrin önündə çıxış etməsi də bu yerlərə böyük dəyər verildiyini təsdiq edir. İşğal dövründə düşmənlərimiz və tarixi abidələrimiz dağıdılmışdır. Bu gün onların hamısı bərpa olunur ki, bunların içərisində kilsələr də vardır. Bu da bizim düşməndən fərqimizi göstərir.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra digər sahələrdə olduğu kimi, dini sahədə də ciddi dönüş yarandı. Qanunlar qəbul edildi. ***“Dinimiz xalqımızın milli-mənəvi sərvətidir”***, – deyən Ümummilli Lider dövlətin dinlə bağlı siyasətini müəyyənləşdirdi. Bu ənənə bu gün də davam edir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva, Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin mütəxəssisi Tural Məmmədzadə çıxış edərək Ulu Öndərin gənclər siyasətindən və mənəvi dəyərlərimizin qorunmasındakı xidmətlərindən bəhs ediblər.

Sonda “Heydər Əliyev 100: mənəviyyata bağlı ömür” filmi nümayiş olunub.

Nahar fasiləsindən sonra qonaqlar Heydər Əliyev Muzeyini, Heydər Məscid kompleksini və “Əshabi-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər.

**Ramiyyə ƏKBƏROVA**

## Forum iştirakçıları: Ulu Öndərin Türkiyə-Azərbaycan münasibətlərinin bugünkü səviyyəyə yüksəlməsində misilsiz xidmətləri vardır

*Naxçıvanda Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Bir millət iki dövlət” forumu keçirilib. Forum iştirakçıları “Şərq qapısı” qəzetinə müsahibə veriblər.*

***Adil Əliyev – Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini:*** – Mən, ilk növbədə, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün xanıma öz təşəkkürümü bildirirəm ki, o hər zaman iki qardaş ölkə münasibətlərini önə çəkib, önəm verib və il ərzində çoxlu sayda bu formada tədbirlər təşkil edib. Və, təbii ki, dərnəyin təşkil etdiyi Türkiyə Cümhuriyyətinin, Ulu Öndər Heydər Əliyevin 100 illiyinin birgə, xüsusilə də Naxçıvanda keçirilməsi tədbirə böyük önəm qatır. Çünki Naxçıvan Ulu Öndər Heydər Əliyevin vətənidir, sevdiyi bir diyardır. Naxçıvan, təbii ki, hər birimizin sevdiyi məkandır. O tək Naxçıvan üçün yox, Azərbaycan üçün yox, dünya üçün önəmli bir siyasətçi, önəmli bir lider idi. Ulu Öndər Türkiyə-Azərbaycan münasibətlərini hələ SSRİ-də vəzifə tutduğu dövrdə də inkişaf etdirməyə çalışırdı. Bakı-Tibilisi-Ceyhan boru kəməri layihəsinin həyata keçirilməsi ilə münasibətlərin bir istiqamətdən başqa istiqamətə çəkilməsi və dünya bazarına çıxarılması ancaq Heydər Əliyevin səriştəsi idi. Bunu zamanında düşünmüşdü. Ulu Öndər Azərbaycanın bu gün əldə etdiyi qələbəni düşünüb Türkiyə üzərindən o layihələri həyata keçirdi. Ümumiyyətlə, hər birimiz Ulu Öndər Heydər Əliyevin irsini, onun həyat və fəaliyyətini hər zaman təbliğ etməliyik, gənc nəsillərə aşılamalıyıq. Onun nə qədər böyük bir azərbaycanlı, öz ölkəsinə, dövlətinə layiq lider olduğunu, Vətəni üçün canını belə verməkdən çəkinməyən qorxmaz, müdrik bir insan olduğunu Vətəni üçün biz hər zaman belə tədbirlər vasitəsilə gənc nəsillərə ötürməliyik. Tədbirin təşkilatçılarına, Naxçıvan rəhbərliyinə minnətdarlığımı bildirirəm. Bu cür tədbirlərin önəmi çox böyükdür.



***Aygün Attar – Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri:*** – Naxçıvan torpağında həm Ümummilli Liderin, həm də Türkiyə Respublikasının 100 illik yubileyi ilə əlaqədar forum həyata keçirdik. Tədbirin burada təşkili təsadüfi deyil. Çünki Naxçıvan Azərbaycan tarixində çox önəmli yerə sahib olan, Azərbaycanın müasir tarixçiliyində, dövlət strukturunun inkişafında misilsiz xidmətləri olan, ölkəni beynəlxalq arenada tanıdan Ulu Öndərin dünyaya göz açdığı torpaqdır. Dahi şəxsiyyət 90-cı illərdə, ölkənin ağır günlərində çox çətin vəziyyətdə olan xalqın dəvəti ilə doğulduğu ana torpaq Naxçıvana gələrək Ali Məclisin Sədri kimi xilaskarlıq missiyasına başladı.Daha sonra Ulu Öndər İğdıra səfər edərək Süleyman Dəmirəllə imzaladığı protokollar nəticəsində *“Bir millət, iki dövlət”* fəlsəfəsinin əsasını qoydu. Həmin fəlsəfə hazırda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ölkələrimizi müttəfiqlik səviyyəsinə yüksəldilib. Bu gün Türkiyə-Azərbaycan münasibətlərinin bu səviyyəyə gəlməsində, Şuşa Bəyannaməsinin imzalanmasında Naxçıvanın müstəsna rolu vardır. Ona görə də mən bu forumun burada keçirilməsi fikrini irəli sürəndə həm Türkiyə Prezidenti Adminstrasiyası Kommunikasiya İdarəsinin rəhbərliyi, həm də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi tərəfindən ciddi şəkildə dəstəkləndi. Forumda Türkiyə parlamentindən millət vəkilləri, dəyərli iş adamları, professorlar, ziyalılar, rəsmi şəxslər iştirak edirlər. Bu foruma Naxçıvan ictimaiyyəti də çox böyük maraq göstərir. Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün abidələrini ziyarət etdik, önlərinə gül dəstələri qoyaraq ehtiramlarımızı göstərdik. Çox yaxın dövrdə Naxçıvanda Azərbaycan və Türkiyə prezidentləri görüş keçirdilər, mühüm layihələrə imza atdılar. Gələcəkdə reallaşacaq Zəngəzur dəhlizi Azərbaycan həqiqətlərinin dünyada öz yerini alması və bölgənin inkişafı nöqteyi-nəzərindən çox əhəmiyyətli bir layihədir. Azərbaycanın israrla üzərində durduğu və Türkiyənin də dəstəklədiyi “3 üstəgəl 3” formulu da bölgə ölkələrinin hamısının iqtisadi inkişafına səbəb olacaq. Biz bu forumda da “Zəngəzur dəhlizi və bölgəyə təsiri”, Naxçıvanın tarixi əhəmiyyəti mövzularını gündəmə gətirdik. Bu mövzular üzərindən panellərimiz keçirildi. Forumda, ümumilikdə, Naxçıvanın tarixi-siyasi əhəmiyyətinə dərin şəkildə toxunuldu, mövzuların mahiyyəti açıldı. Bundan sonra da Naxçıvanla işbirliyimiz davam edəcək. Bizim fond Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Türkiyədə qurulan, Türkiyə dövlətinə aid olan yeganə Türkiyə-Azərbaycan fondudur. Fondumuzun əsas qayəsi Türkiyə ilə Azərbaycan arasında mədəni, siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsini təmin etməkdir. Biz işimizi bundan sonra da bu qayə üzərində davam etdirərək iki qardaş ölkənin daha da yaxınlaşmasına, doğmalaşmasına töhfə verməyə çalışacağıq.



***Zeynəb Yıldız – AK Parti Ankara millət vəkili:*** – Forumda çıxış edən natiqlər də Cümhuriyyətimizin 100-cü ildönümündən bəhs etdilər. Tədbir Cümhuriyyətin, Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ili münasibəti, eyni zamanda həm tarix, həm keçirildiyi yer etibarilə, həm də adı ilə çox güclü bir məna daşıyır. Forumun adı “Bir millət, iki dövlət”dir. Yəni, həqiqətən, mən buradakı bir millət olma vurğusunun çox önəmli olduğunu düşünürəm. Yəni bizim burada bir millət şəklində hərəkət etməyimizin bizə necə müsbət nəticələr gətirdiyini ən bariz şəkildə Qarabağ Zəfərində gördük. O dövrdə Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğan qəti şəkildə bəyan etdi ki, Azərbaycan istədiyi şəkildə yanında olacağıq. Və həqiqətən, bu bir qardaşlıq hüququnun nişanəsidir və bizlər də bu qardaşlıq hüququnun gərəyi olaraq bu gün buradayıq. Forumda Zəngəzur dəhlizini müzakirə etdik. Zəngəzur dəhlizi, həqiqətən, Qarabağ Zəfərinin, əslində, Azərbaycanın ən önəmli nəticələrindən biridir. Buna görə də, bu forumun Naxçıvanda keçirilməsinin daha böyük bir əhəmiyyəti olduğunu düşünürəm. Mən tək Naxçıvana deyil, İğdıra da ilk dəfə gəldim. Buna görə də, həqiqətən, bu bölgənin nə qədər zəngin, münbit, insanlarının enerjisinin yüksək olduğunu gördüm. Naxçıvanın potensialı çox yüksəkdir. Bütün bunlar həm burada yaşayan vətəndaşlarımız, həm də Türk dünyasına və bütün dünyaya nəfəs vermək baxımından çox önəmli olacaq.



## Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev: “Məqsədimiz Naxçıvan məhsullarını Naxçıvan brendi – “Made in Nakhchivan” adı altında dünyaya tanıtmaqdır”

***Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev*** Naxçıvan Muxtar Respublikasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Naxçıvandan başlanan yol” mövzusunda konfransdan sonra “Şərq qapısı” qəzetinə müsahibə verib: – Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvandan başlanan həyat yolu ilə bağlı keçirilən konfrans Onun layiqli davamçısı Prezident cənab İlham Əliyevin birinci dəfə prezident seçilməsinin 20 illiyinə həsr olunub. Tədbirimiz bildiyiniz kimi, 2 hissədən ibarətdir. Birinci hissəsi Ulu Öndərin və cənab Prezidentin 20 illik fəaliyyətinə həsr olunub və ikinci hissə sahibkarlarla görüşüdür. Artıq 44 günlük müharibədən sonra torpaqlarımız bütövlükdə işğaldan azad olunub və ərazi bütövlüyümüzü tam təmin etmişik. Bu isə Azərbaycan xalqının hər bir vətəndaşında böyük bir sevinc yaradıb, hamıda böyük ruh yüksəkliyi var. Bu ruh yüksəkliyini davam etdirmək üçün, təbii ki, güclü dövlət olmaq, bunun üçün isə güclü iqtisadiyyat lazımdır.



Azərbaycanda sahibkarlığın inkişafı, onun gücləndirilməsi, rəqabət qabiliyyətinin artırılması sahəsində işlər görülür. Bu istiqamətdə sahibkarların öhdəsinə böyük bir iş düşür. Bu gün Azərbaycan artıq regionda güclü dövlətdir, dünya tərəfindən qəbul edilən dövlətdir. Bu sahədə saatlarla danışmaq olar. Bizim müstəqil siyasətimizin uğurlarının qurucusu Heydər Əliyevdir, çağdaş Azərbaycanın banisidir. Tədbirin digər hissəsi isə dahi şəxsiyyətin layiqli davamçısı cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsi və 20 illik fəaliyyətinə həsr olunub. Bu 20 il ərzində cənab Prezident Azərbaycan üçün nə qədər işlər görmüşdür. Azərbaycanda ümumi daxili məhsul 3,6 dəfə artıb. Bu, çox böyük rəqəmdir. Bu gün də Azərbaycanda təkcə paytaxt Bakıda yox, bütün regionlarda inkişaf gedir. Bu gün Naxçıvanda da xoş günləri görürük. Naxçıvan müasir bir şəhərdir, turistik bir şəhərdir. Sənaye şəhəridir. Görülən işlər həddindən artıq çoxdur. Ancaq bilirsiniz ki, bizim güclü rəqiblərimiz də var, sürətli inkişaf üçün biz çox işlər görməliyik, buraya böyük həyatlə gəlmişik. Tərkibdə sahibkarlar komissiyasının rəhbər heyəti var. O cümlədən qadın sahibkarlar qrupunun rəhbəri var. İri bankların rəhbərləri, o cümlədən investorlar buraya gəlib. Kiçik, orta və böyük sahibkarların bir çoxu buradadır. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli ilə görüş zamanı müzakirə olundu ki, necə edək ki, Naxçıvan məhsullarını Naxçıvan brendi – “Made in Nakhchivan” adı altında dünyaya çıxaraq. Onu da qeyd edim ki, Naxçıvan, doğrudan da, müqəddəs torpaqdır. Türk dövlətlərinin təşkilatı ilk dəfə 2009-cu ildə burada təsis olunub. Bu da çox böyük tarixi hadisədir. Bu dövlət təşkilatları güclü bir qurumdur. Artıq onun 5 daimi üzvü var. Bu toplumda böyük birlikdir, cənab Prezidentimizin uğurlu siyasəti sayəsində yeni bir səhifə açılır. Bu səhifə İslam dünyasıdır. Ulu Öndər İslam dünyasına çox önəm verirdi. Cənab Prezidentin də bu əlaqələri diqqətdə saxlayır. Bizim də məqsədimiz Türk dünyasının sahibkarları ilə əlaqələri birləşdirmək və onların yeni, daha böyük inkişaf yoluna çıxmasına nail olaq.

Onu da qeyd edim ki, ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamla təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası zamanı sahibkarlarla bağlı yeni layihələr planlaşdırılır. Biznes mühiti yeni güzəştlər nəzərdə tutub. Kapital, maliyyə vəsaiti qoyuluşunda bu gün artıq bank və digər təşkilatlar təmsil olunur. Rəhbərlik etdiyim aqrar təşkilat fevral ayında burada olmuşdur. 3 milyon manat kredit ayrılması nəzərdə tutulub. Eyni zamanda hədəfimiz əlavə kreditlərin ayrılmasıdır. İqtisadiyyat Nazirliyi ilə görüşməkdə də məqsədimiz daha iri layihələr reallaşdırmaqdır. Məqsədimiz ixracyönümlüdür, bir də idxalın qarşısını almaqdır. Arzumuz Zəngəzur dəhlizinin açılması, gediş-gəlişin asanlaşması, qardaş Türkiyə ilə iqtisadi əlaqələrin, ticarətin genişlənməsidir. Proqramımız genişdir, muxtar respublikaya səfərlərimiz, görüşlərimiz davamlı olacaq.

✍ **Nail ƏSGƏROV**

## İctimaiyyətlə əlaqələr sektorunun əvəzedilməz vasitəsi olan press-reliz hazırlanması ilə bağlı təlim-seminar

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin Xəbərlər departamentinin direktoru İlhamə Novruzova tərəfindən dövlət qurumlarının mətbuat xidməti rəhbərlərinə press-reliz hazırlanması ilə bağlı təlim-seminar keçilib.



Təlim-seminarda KİV-lərlə səmərəli və uğurlu əməkdaşlığın qurulması, press-relizin məzmunu və strukturu, xəbərlərdə nəyin əks etdirilməsinin zəruriliyi, cəmiyyətdə medianın rolu və digər məsələlərdən bəhs olunub. Müasir dövrdə media ilə, əlaqələrin qurulması, press-relizin yazılması və müsahibənin verilməsi qaydaları, bu işə cavabdeh şəxslərin davranışları və digər mövzular haqqında geniş məlumat verilib. İctimaiyyətlə əlaqələri düzgün tənzimləməyin, müəssisənin fəaliyyəti haqqında mediaya dolğun məlumat ötürməyin əhəmiyyətindən bəhs edən İlhamə Novruzova ictimaiyyətlə əlaqələrin, media ilə işin təşkilinin daha peşəkarcasına qurulmasının vacibliyinə diqqət çəkib.

Vurğulanıb ki, press-reliz məzmununa görə xəbər, məlumat, məhsul tanıtımı, müsahibə kimi bir çox fərqli üslubda hazırlana bilər. Bu mətnlərdə yer alan məlumatlar cəmiyyəti, sektoru, bəzən də müəyyən auditoriyanı maraqlandıracaq və yaxud narahat edəcək mövzulardan bəhs edilməlidir. İctimaiyyətlə əlaqələr sektorunun əvəzedilməz vasitəsi olan press-reliz qəzet, jurnal, internet mediası, televiziya kanalları və bu sahədə çalışan mətbuat nümayəndələrinə göndərilir. Ümumi mənada isə press-reliz hansısa qurumun və ya şəxsin mediaya verdiyi rəsmi bəyanatdır. Son illərdə video press-relizin də mətbuatda populyarlıq qazandığını deyən İlhamə Novruzova press-reliz nədir, necə yazılır, 5N-1K qaydası nədir, press-relizdə nələr var, hansı mövzuları əhatə edir, onu təqdim etmək kimə lazımdır, bu xidmət brendiniz üçün niyə vacibdir və digər suallar ətrafında danışaraq şablonçuluqdan, təkrarçılıqdan və sözçülükdən çıxmağın zəruri olduğunu qeyd edib.

İnteraktiv şəkildə keçən təlimdə iştirakçılar sual və təkliflər ünvanlayaraq mövzu barəsində fikirlər səsləndirib. Təlim-seminar bu gün də davam edəcək.

✍ **Fariz ƏHMƏDOV**

## Qadın əməyinin təşviqinə həsr olunmuş tədbir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən “Əmək bazarı” işçi qrupunun “2023-cü il üzrə Fəaliyyət Planı”nın icrası və “Qadın əməyinin təşviqi” ilə bağlı regionlarda maarifləndirici tədbir keçirilir. Bu münasibətlə keçirilən tədbirdə muxtar respublikada fəaliyyət göstərən qadın əməyinin az tətbiq edildiyi 29 müəssisənin 72 nümayəndəsi iştirak edib.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov çıxış edərək bildirib ki, böyük mədəni irsə malik olan xalqımız cəmiyyətdə, ailədə qadının rolunu hər zaman yüksək qiymətləndirib. Azərbaycan qadını da tarixboyu cəmiyyətimizin, milli-mənəvi dəyərlərimizin inkişafında böyük rol oynayıb.

Çıxış edənlər arasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aparatının əməkdaşları Orxan Nadirov, Rəşad Əhmədov, Dövlət Məşğulluq Agentliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin və Məşğulluq Agentliyinin nümayəndələri çıxış edərək ölkədə qadınların məşğulluq imkanlarının genişləndirilməsi üçün işəgötürənlərlə birgə maliyyələşmə tədbirlərinin, gender bərabərliyinin və qadınların daha yüksək əməkhaqqı ödənilən sahələrdə çalışmasının təmin edilməsi, beynəlxalq əmək normalarına uyğun olaraq qadınların hüquqlarının müdafiəsi mövzusunda qonaqları məlumatlandırıblar.

Tədbirdə qadın əməyinin təşviqi ilə bağlı iştirakçılara maarifləndirici slaydlar nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb.

✍ **Bülbül QULİYEVA**

Müasirləşən kəndlərimiz

# Dağlara, dağ vüqarlı oğullara söykənən

# ŞAHBULAQ



***Uca dağların arası ilə gedən yolla irəliləyən avtomobil bizi Şərur rayonunun Şahbulaq kəndinə aparır. Yolboyu Tanrının yurdumuza bəxş etdiyi gözəlliklərə tamaşa edirik. Payız fəslinin bolluq və bərəkət dolu bu günlərində həyət-bacaların cəvizini, badamını, meyvəsini toplayan insanlar düşmənin bir addımlığında qorxu-ürkü bilmədən ömür-gün sürürlər. Kəndə çatanda görürük ki, rayon mərkəzindən 22 kilometr aralıda dağlıq ərazidə yerləşməsinə baxmayaraq, burada insanların yaşayışı üçün hər cür şərait yaradılıb. Bu ucqar yaşayış məntəqəsində ilk baş çəkdiyimiz ünvan kənd mərkəzi oldu.***

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ***İntiqam Həsənov*** bizə kənd haqqında geniş məlumat verdi. Öyrəndik ki, 2013-cü il dekabrın 3-də kənddə avtomobil yolu, məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Məktəb binası 110 şagird yerlikdir. Binada 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, kitabxana, idman zalı və bufet yerləşir. İnformatika dərslərinin daha səmərəli keçirilməsi üçün ayrıca kompüter otağı yaradılmış, kompüter dəstləri quraşdırılmış, onların internetə çıxışları təmin edilmişdir. Bununla yanaşı, məktəbdə 3 elektron lövhəli sinif vardır.

Məktəbin tarix müəllimi ***Mirabbas Eminov*** ilə söhbət zamanı öyrəndik ki, o, müharibə veteranıdır. 1990-cı illərdə kəndi düşməndən qoruyanlardan biri olub: – Həmin illərdə qəfil hücumun qarşısını əliyalın aldı kənd sakinləri. Düşmən





hücumu ilə üz-üzə gələndə heç kim hazırlıqlı deyildi. Vaxtilə ocağımızdan od, təknəmizdən çörək, saf bulaqlarımızdan su, torpaqlarımızdan pay verilən bədnamların belə gözüaç olduğunu bildik, amma bu qədər də mənəviyyatsızlaşacaqları ağlımıza gəlməmişdi. Qəfil hücum olsa da, xalqımızın qeyrətli oğullarının sayəsində bir qarış belə düşmənə güzəştə gedilmədi. Həmin illərdə Naxçıvana sərhədboyu hücum etsələr də, paylarını alıb geri oturdular. Ulu Öndərin düzgün siyasəti sayəsində səngərdəki oğullar da, arxadakı sakinlər də bərk dayandı. Və biz qalib gəldik. Bu gün düşmən postlarının hədəfində olmağımızdan heç kim çəkinmir. Baxmayaraq ki, sinif otaqlarının pəncərəsindən düşmən postları görünür. Şagird də, müəllim də heç bir qorxu keçirmir. Çünki bilirik ki, bizi qoruyan güclü Azərbaycan əsgəri var. Hər bir şagirdimiz yaxşı dərk edir ki, o, qalib xalqın övladıdır.

Mirabbas müəllim onu da deyir ki, bu gün övladlarımıza Azərbaycanın Zəfər tarixindən danışa bildiyi üçün qürurludur. Azad torpaqların zəngin tarixini şagirdlərə tədris etdikcə hər bir şəhidimizin ruhu da şad olur.

Məktəbdən ayrılandan sonra İntiqam Həsənov bizi kənd mərkəzi ilə də tanış edir. Bildirir ki, kənd mərkəzində kitabxana, polis sahə məntəqəsi, baytar otağı, rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, mədəniyyət evi və 55 yerlik iclas zalı yerləşir. Kənd mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, kənd mədəniyyət evinin fəaliyyəti üçün də lazımi şərait yaradılıb. Rabitə evində yeni ATS quraşdırılıb, poçt bölməsi yaradılıb. Mərkəzin birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün 4 iş otağı ayrılıb. Məntəqə dərman vasitələri, peyvənd və ilkin tibbi yardım çantaları ilə təmin edilib.

Feldşer-mama məntəqəsində olarkən kənd sakini yaşı 80-ni ötmüş ***Lətifə Əliyeva*** ilə tanış olub, onunla söhbətləşirik. O dedi:

– Sovetlər dönəmində kənd yerlərində bu cür gözəl, yaraşıqlı, lazımi avadanlıq və cihazlarla təchiz edilən tibb ocağı barədə danışmaq belə olmazdı. O zamanlar cavan idik, bir ehtiyac olanda rayon mərkəzinə getməli olurduq. Artıq yaş öz işini görür. Xəstəliklərə bəzən güc gələ bilmirik. Təzyiqimiz yüksəlir, başımız ağrıyır, yaşlı adamıq. Məntəqə yaxındır deyə, gəlib həkimlərimiz tərəfindən müayinə edilə bilirik. Elə olur ki, onlar özləri evimizə gəlir, bizə ilkin tibbi yardım göstərir. Var olsun dövlətimiz, hamımızın qeydinə qalır. Lətifə xanımın həyat yoldaşı ***Qəşəm dayı*** ilə də həmsöhbət olduq. O, evin işıq, qaz və digər kommunal xərclərini ödəmək üçün poçt bölməsinə gəlib. Deyir ki, müstəqil dövlətimiz gücləndikcə kəndlərimizdə də səhiyyə ocaqlarımız üçün yeni binalar inşa olunur. Bu da əhalinin sağlamlığının qorunmasında, onlara tibbi xidmətin göstərilməsində böyük rol oynayır. Bu qayğı təkcə səhiyyə ocaqları ilə bitmir. Kənddə poçt bölməsi, xidmət mərkəzi də var ki, bu da biz yaşlı insanların işini asanlaşdırır. Əvvəllər bu xidmətlərdən istifadə etmək üçün rayon mərkəzinə getməli olurduq. Artıq 10 ildir ki, hər bir xidmət ayağımıza gəlib. Xidmət mərkəzində ərzaq mağazası, ət satışı yeri, bərbərxana da var. Qəşəm dayı onu da deyir ki, kənddə abadlıq işləri görüləndə içməli su xətti təmir edilib. Kənddaxili məhəllələrdə yol kənarları boyu hasar çəkilib.

– Dağ yerində vəhşi heyvanların sayı çox olur. Bu çəkilən hasarlar gecə-gündüz həmin heyvanların əkin-bacaya, toyuq-cücəyə ziyan verməsinin qarşısını alır. Qurubyaradan əllər var olsun.

"Şahbulağın gözəl təbiəti burada yaşayan insanların maldarlıqla, arıçılıqla məşğul olmasına şərait yaradır. Ərazi dağlıq olduğu üçün arıçılıqda uğur qazanmaq mümkündür", – deyir kənddə qonağı olduğumuz ***Vəfadar Rzayev***. O, uzun illərdir ki, arıçılıqla məşğuldur. Bildirir ki, 50-yə yaxın arı ailəsinə qulluq edir.

Dağ çiçəkləri ilə qidalanan arıların balı aran yerlərdə yetişdiriləndən daha gözəl olur. Ona görə də müştərisi də bol olur. Tanrının bizə bəxş etdiyi gözəllikdən və dövlətimizin yaratdığı şəraitdən istifadə edir, öz dolanışığımızı təmin edirik.

Kənddən ayrılarkən səmada güclə sezilən Günəş dağların arxasına çəkilməkdə idi. Kənd adamları ilə söhbətlərimdən aldığım təəssüratlar, müşahidə etdiklərim bu dağ yaşayış məntəqəsində əvvəllər gördüklərimin üzərinə bir qədər də yeniliklər gətirmişdi. Gözlərim bir anlığa dağlara sataşdı. Kəndə duman çökməkdə idi. Gözlərimin dağdakı dumana dikildiyini görən kənd ağsaqqalı Qəşəm dayı dedi: "Qorxusu yoxdur, uzağı leysan yağacaq. Buranın camaatı nə sərt soyuqdan, nə də kəndi tez-tez bürüyən çən-dumandan qorxur. Çünki dövlətimiz onlara hərtərəfli şərait yaradıb".

✍ **Ramiyyə ƏKBƏROVA**

## Dövlət Proqramının icrası istiqamətində işlər davam etdirilir





Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndlərinin icrası məqsədilə ardıcıl işlər görülür. Bu istiqamətdə muxtar respublikanın turizm potensialının qiymətləndirilməsi və müxtəlif turizm növlərinin inkişaf etdirilməsi qarşıda duran mühüm vəzifələrdəndir.

Qarşıya qoyulan tələblərin icrası məqsədilə "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Rüstəm Nəcəfovun rəhbərlik etdiyi 6 nəfərdən ibarət nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib. Səfər çərçivəsində nümayəndə heyəti Batabat yaylağına və Ağbulaq İstirahət Mərkəzinin ərazilərinə baxış keçirib. Batabat gölləri ətrafında qiymətləndirmə işləri aparılıb, müxtəlif turizm növlərinin inkişaf imkanları dəyərləndirilib və yeni konsepsiyanın hazırlığına başlanılıb. Daha sonra nümayəndə heyəti Ağbulaq İstirahət Mərkəzinin fəaliyyəti ilə tanış olub. Ağbulaq İstirahət Mərkəzinin rəhbərliyi ilə görüş zamanı mərkəzin işçilərinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətində təcrübə keçmələri üçün razılıq əldə edilib, istirahət mərkəzinin səmərəli fəaliyyəti üçün ekspertlər tərəfindən tövsiyələr verilib. Eyni zamanda qarşılıqlı turist cəlbediciliyinin artırılması, ikitərəfli münasibətlərin inkişafı, maraqdoğuran layihələrin və yeni turizm fəaliyyətlərinin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin ölkəmizin turizm sənayesinin inkişafında xizək mərkəzlərinin əhəmiyyəti, qarşılıqlı kommunikasiya əlaqələrinin genişləndirilməsi və birgə iş birliyinin yaradılması məsələləri müzakirə olunub.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Azərbaycanın tanınmış güləş mütəxəssisləri Naxçıvanda seminar keçib



Azərbaycan Güləş Federasiyasının (AGF) məşqçilər üçün təşkil etdiyi ümumrespublika seminarına Naxçıvanda yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində 40-a yaxın məşqçi-müəllimin iştirakı ilə seminarın nəzəri hissəsi reallaşıb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Giriş sözü ilə çıxış edən nazirliyin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, o cümlədən Naxçıvan Güləş Federasiyasının sədri Faiq İsgəndərov qonaqları salamlayıb, muxtar respublikada bu idman növünün inkişafı üçün müxtəlif tədbirlər görüldüyünü və bu seminarın da faydalı olacağına inamlarını ifadə ediblər.

Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının sədri Qərib Əliyev müxtəlif güləş qarşılaşmalarının videoicmalının nümayişi fonunda fəndləri qiymətləndirib, epizodları şərh edib. Sərbəst güləş üzrə U-20 milli komandanın məşqçisi Rövşən Hacıyev, I-S olimpiya kateqoriyalı hakim Sədi Quliyev məşqçiliklə bağlı nəzəri bilikləri diqqətə çatdırıblar və müxtəlif sualları cavablandırıblar.

Veteranlar arasında dünya çempionatlarının 7 qat medalçısı Rövşən İsmayılxanlıya 60 illik yubileyi münasibətilə AGF tərəfindən xatirə hədiyyəsi təqdim edilib.

Seminarın İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən praktiki hissəsində Rövşən Hacıyev fəndlərin icrasının incəliklərini, Sədi Quliyev isə xalçadançıxma, parter və digər vəziyyətlərdə verilən xalları diqqətə çatdırıb. Sonda tədbir iştirakçılarına sertifikatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## "Debat Liqası" layihəsinə yekun vurulub



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Dövlət Universitetinin nəzdində olan Naxçıvan Dövlət Texniki Kollecin təşkilatçılığı, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin dəstəyi ilə kollecin tələbələri arasında 10-25 oktyabr 2023-cü il tarixlərində "Debat Liqası" layihəsi keçirilib. Layihənin final mərhələsində Gənclər və İdman İdarəsinin rəisi Tahir Məmmədli, Texniki Kollecin direktoru Asəf Ruşanov və layihənin rəhbəri Bağdagül Cəfərli çıxış edib, tədbir haqqında fikirlərini bildiriblər. Liqada, ümumilikdə, 8 komanda, hər komandanın tərkibində isə 3 nəfər olmaqla, 24 tələbə iştirak edib. Yekuna əsasən "Liberal" komandası I, "Sirius" komandası II yerə layiq görülüb.

Yer tutan komandalara idarənin diplom və medalları, layihənin idarə heyətinə isə diplom və sertifikatlar təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonu, Çərçiboğan kənd sakini Süleymanov Fəxrəddin Elman oğlunun adına olan JN-538[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Tarverdiyev Talıb Bəhman oğlunun adına olan JN-301[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Dizə kənd sakini Qurbanova Sahirə Məhərrəm qızının adına verilmiş JN-397[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Tarverdiyev Əfsər İbrahim oğlunun adına olan JN-159[A] nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 627